# Azərbaycan Milli İncəsənət Muzeyində konsert verilib



**Azərbaycan Milli İncəsənət Muzeyində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Əməkdar artist Fəridə Məmmədova və konsertmeyster Yuliya Kərimovanın yaradıcılıq tandemi tərəfindən təqdim olunan "Meridianlar" layihəsi çərçivəsində növbəti konsert keçirilib.**

Qonaqlara Qərb və Şərq bəstəkarlarının musiqi əsərlərini birləşdirən proqram təqdim edilib. Layihənin kuratoru Aqdes Bağırzadə olub.

Çoxlu və müxtəlifyönümlü sənət layihəsinin müəllifi olan layihə kuratoru Aqdes Bağırzadə AZƏRTAC-ın müxbiri ilə söhbətində bildirib ki, ikinci konsert "Meridianlar" layihəsinin ideya yönümünü orqanik şəkildə davam etdirib.

"Layihəmiz musiqi vasitəsilə Qərblə Şərqi sanki görünməz bir sapla birləşdirir. Deyə bilərik ki, biz müxtəlif ölkələrin bəstəkarlarının əsərləri vasitəsilə musiqi aləminin "xarici təsirlərə" nə dərəcədə açıq olduğunu nümayiş etdiririk. Bəstəkarlar sanki bir çox mədəniyyətdən qidalanaraq əsərlərinə əlavə dərinlik verib, iki dünyagörüşü arasında musiqi körpüsü yaradıblar. "Meridianlar" silsiləsinin ilk konserti 2024-cü ilin noyabrında Azərbaycan Milli İncəsənət Muzeyində baş tutub. Çox xoşdur ki, bu axşam konsertimizə gələn dinləyicilər Azərbaycan səhnəsində ilk dəfə səslənən əsərlərlə yenidən tanış olmaq imkanı qazandılar. Xüsusilə qeyd etmək istəyirəm ki, Fəridə Məmmədova və Yuliya Kərimova ilə musiqi layihələrimizi artıq on ildir təqdim edirik.

Bu illər ərzində dinləyicilərə unikal əsərlər təqdim etməyə nail olduq və hər dəfə nəsə yenilik gətirməyə çalışdıq. Təki klassik musiqiyə dəyər verən Azərbaycan dinləyicisi hər konsertdə yeni bir şey öyrənə bilsin. Zalın formatı isə konsertimizə əlavə bir ab-hava qatdı, sanki Mariinsk Qızlar Gimnaziyasının memarlıq abidəsi olan binasında bu cür axşamların təşkil olunduğu dövrə qayıtdıq. Bizə xoşdur ki, akademik kamera vokal musiqi axşamlarının orijinal və dünyada mövcud olan formatda bərpasına töhfə veririk", - deyə Aqdes Bağırzadə bildirib.

Azərbaycanın Əməkdar artisti Fəridə Məmmədova qeyd edib ki, konsertmeyster Yuliya Kərimova ilə əməkdaşlıq dövründə tamamilə fərqli bəstəkarların və üslub istiqamətlərinin musiqisinin səsləndiyi çox sayda konsert veriblər.

Azərbaycan.- 2025.- 4 may (№ 90).- S.9.